# Psixoloji müdafiə mexanizmlərinin mahiyyəti və təsnifatı

**Vəfa Namiq qızı Ağayarlı**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** vafaagayarli@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. S.Q. Həsənli
psixol.ü.f.d., dos. Ü.A. Əfəndiyeva

**Açar sözlər:** məktəb, psixoloji, adaptasiya, təlim, pedaqoq
**Ключевые слова:** школа, психологическая, адаптация, тренинг, педагог
**Key words:** school, psychological, adaptation, training, pedagogue

Psixoloji müdafiə nədir? Psixoloji müdafiə psixi sağlamlığın qorunması məqsədilə travmatik həyəcanlara yönəlmiş şəxsiyyətin stabilliyinin xüsusi sistemidir. Həyat prosesində insan dəyişir, yəni o, öz baxışlarında, mənəvi dəyərlərində, təsəvvürlərində dəyişikliklər edir. Bəzən o, insan üçün gözlənilməz olur, bəzən də ondan ciddi iş tələb edir. Belə dəyişikliklər adətən insan tərəfindən dərk edilir. Bəzən elə hallar baş verir ki, insan qeyri-ixtiyari olaraq yeni təcrübədən imtina edir. Bunlar şüursuz requlyativ psixoloji mexanizmlərin hesabına həyata keçir. Belə psixoloji mexanizmlərin hərəkəti bəzən dərketmə, bəzən də insanın iradəsi ilə baş verir. Həmin mexanizmlər psixikanı qoruyur və onu ağır yükdən müdafiə edir. Ona görə də onlar psixoloji müdafiə mexanizmləri adını almışlar.

Müasir psixoanalitiklərdən olan Brenner psixoloji mexanizmi təfəkkürün müvafiq aspekti kimi səciyyələndirir. O “Mən” (Eqo) və “O” (İd) arasındakı qarşılıqlı təsiri əks etdirir. Konfliktli situasiyaların xüsusiyyətlərindən asılı olaraq “Mən” müdafiə mexanizminin maraqlarının qənaətbəxş olması üçün onları müdafiə kimi qəbul etmək olar. Alim tədqiqatçı Brennerin fikri ilə razılaşaraq qeyd edə bilərik ki, müdafiə məqsədlərində “Mən” istənilən yönəlişlikdən, qavrayışdan, diqqətin yayınıqlığından, davranışa qıcıqlandırıcıların müdaxiləsindən istifadə edir (2, s. 108).

Psixoloji lüğətdə müdafiə şəxsiyyətin stabilliyinin xüsusi tənzimedici sistemi kimi müəyyən edilir və o, konfliktin dərki ilə bağlı təhlükə hissinin aşağı düşməsinə yönəldilmişdir. Belə anlayış funksional “Mən”i əks etdirir, lakin o, psixoloji müdafiənin məzmununu izah etmir. Müəlliflərin bir qismi həmin fenomeni geniş mənada nəzərdən keçirir, ona istənilən davranışı daxil edir, psixoloji diskomfortu aradan qaldırır.

Tədqiqatçılar arasında müdafiə məqsədlərinin anlaşılmasındakı ziddiyyətli fikirlərə az rast gəlinir. Onların əksəriyyəti bu məqsədi daxili psixi adaptasiyaya aid edir, onu koqnitiv və affektiv vəziyyətlərin diskomfortluğunun qarşısının alınması kimi xarakterizə edirlər. Problemdəki çətinliklər çox hallarda müdafiə prosesinin funksionallaşmasında və aktuallaşmasının şüursuz xarakterində şərtləndirilmişdir.

Psixoloji ədəbiyyatda psixoloji müdafiəni iki kateqoriyaya ayırırlar: birinci qrupda ona müvafiq psixi hadisənin mahiyyətinin əksi kimi diqqət yetirilir və aktivlik forması kimi baxılır. İkinci qrupda psixoloji müdafiə mexanizmlərinin məzmunu koqnitiv nəzəriyyələr terminində əks olunur ki, onu informasiyaların xüsusi işlənilməsində nəzərdən keçirirlər.

Psixoloji müdafiə fenomenini təhlil edərkən həmin anlayışa aid olanları aşağıdakı şəkildə fərqləndirdik:

— psixoloji müdafiə psixikanın xassələrinin sistemi kimi (İ.D.Stoykov);
— psixoloji müdafiə şəxsiyyətin xassəsi kimi (A.Freyd, V.A.Taşlıkov, V.M. Volovik);
— psixoloji müdafiə mexanizmləri və ya psixoloji müdafiənin reallaşmasının konkret üsulu kimi (K.Perri, E.S.Romanova);
— müdafiə hərəkətləri psixoloji müdafiə prosesinin xarici davranış xarakteristikası kimi (R.M.Qranovskaya);
— müdafiə strategiyası və taktikası müdafiə üsulları və hərəkətlərinin davamlı sistemi kimi (E.T.Sokolova) (4, s. 145).

Tədqiqatların böyük əksəriyyətində bu anlayış prinsipial əhəmiyyət kəsb etmir, odur ki, müəlliflər "psixoloji müdafiə" termininin genişləndirilməsi məqsədilə sinonimlərdən də istifadə edirlər. Bütün insanlar sağlam və ya xəstə olmalarından asılı olmayaraq onları narahat edən hisslərdən və xatirələrdən azad olmaq məqsədi ilə müdafiə mexanizmlərindən istifadə etmək məcburiyyətindədirlər. Müdafiə mexanizmləri bizim şüurumuzdan asılı olmadan həyata keçirilir, təşvişi aradan götürməyə xidmət edir, psixikanın normal fəaliyyətini təmin edir.

Psixoloji müdafiə psixi sağlamlığın qorunması məqsədilə travmatik həyəcanlara yönəlmiş şəxsiyyətin stabilliyinin xüsusi sistemidir. Psixoloji müdafiə xüsusi tənzimedici sistem kimi özünü göstərir. Müəyyən edilmişdir ki, "Mən-obraz" üçün təhlükəli olan şəraiti, hiss və emosiyaları neytrallaşdırmaq zərurəti meydana çıxdıqda uşaq psixoloji yollarla özünü müdafiə etməyə başlayır.

Psixoloji müdafiə heç də həmişə adekvat formalarda ifadə olunmur. Biz elə hallara rast gəlirik ki, uşaq ya psixoloji müdafiənin formalarından düzgün istifadə etmir, ya da özünü qeyri-adi şəkildə müdafiə edir, bu zaman onun davranışında nevrotik və bəzi başqa simptomlar müşahidə olunur.

Psixoloji təhlil göstərir ki, uşaqlar eyni vaxtda psixoloji müdafiənin bir çox növlərindən istifadə edirlər. İnkaretmə, reqressiya, susdurulma və identifikasiya böyük məktəbəqədər yaşlılar üçün xarakterik haldır. Bəzi müdafiə mexanizmlərini uşaqlar özləri mənimsəyir, bəzilərinə isə böyüklərin davranışını müşahidə etməklə nail olurlar.

Müdafiə mexanizmlərinin fərdi dəsti konkret həyati şəraitdən asılıdır ki, uşaq ailədə və bağçada böyüklərin davranışında müdafiə nümunələri ilə toqquşurlar. Uşaqlarda psixoloji müdafiə mexanizmlərindən müntəzəm olaraq istifadə nəticəsində insanda xarakterin müəyyən cəhətləri də formalaşır.

Reaktiv təhsil müdafiə mexanizmi olub bir psixi impulsun başqasına dəyişməsilə əlaqədardır. Özünün inkişaf səviyyəsinə görə reaktiv təhsil müdafiə mexanizmi 4 yaşdan başlayaraq 6 yaş mərhələsinədək ən axırıncı yerlərdən birini tutur. Bu yaş dövrünün uşaqları ondan müntəzəm istifadə edirlər.4 yaşlı uşaqlara inkişafın ən kiçik səviyyəsi uyğundur. Tədricən 5-6 yaşlarında reaktiv təhsil mexanizmi inkişaf edir və həmin mexanizmdən uşaqlar müntəzəm istifadə edirlər. Qeyd etmək lazımdır ki, oğlanlarla müqayisədə qızlarda həmin mexanizm yüksək dərəcəsi ilə fərqlənir, həmin mexanizmdən müntəzəm istifadə olunur. İnkişaf dinamikasına gəldikdə onu deyə bilərik ki, əgər yaş artdıqca oğlanlarda ondan istifadə halları artırsa, o zaman qızlarda ondan istifadə halları 5 yaşında daha da yüksəlir.

Simvollaşma - müdafiə mexanizmi olub bu və ya digər prosesdə hərəkətlərin, ideyaların, hisslərin müəyyən simvol və məntiqi izahla qeydə alınmasıdır. Simvolizasiya pozitiv müdafiə mexanizmlərindən olub böyük məktəbəqədər yaşda uşaqların sosiallaşmasına müsbət təsir göstərir. Simvollaşma prosesində davranış, ideya və hisslərin məntiqi izahatda qeydə alınır. Bu müdafiə mexanizminin əhəmiyyətliliyi orta səviyyədə bütün yaş mərhələlərində özünü göstərir. 6 yaşda o bir qədər də artır. Əgər simvollaşma müdafiə mexanizminin inkişaf dina-

mikasına nəzər salsaq onu qeyd edə bilərik ki, 4-5 yaşda simvollaşma mexanizmindən istifadə praktik cəhətdən fərqlənir, belə ki, o, 6 yaşda daha da artır (2, s. 145).

Bu müdafiə mexanizminin çox böyük dərəcəsi qızlara məxsusdur. Əgər qızlarda və oğlanlarda simvollaşmanın inkişaf dinamikasını izləsək görərik ki, yetişkənlik dövründə qızların istifadə etdikləri simvollaşma müdafiə mexanizmləri əhəmiyyətli dərəcədə artır, oğlanlarda isə praktik olaraq dəyişməz qalır. Simvollaşma müdafiə mexanizmləri ikincili perseptiv obrazlardan istifadə etməyi tələb edir. Qızlarda bu müdafiə mexanizmindən istifadədə inkişaf dinamikasının bir qədər yüksək olması qeydə alınmışdır. Simvollaşma müdafiə mexanizmi sosial adaptasiya prosesinə təsir edir və yetişkənlik prosesində dəyişir. Odur ki, 4-5 yaşlarında simvolizasiya və sosial adaptasiya arasında əlaqə aşkar edilməmişdir. 5 yaşlı uşağın davranışı frustrasiya situasiyasında bu müdafiə mexanizmi ilə əlaqədardır.

Tədqiqatımızda zəif inkişaf etmiş simvollaşmanın özünümüdafiə ilə bağlılığı qeydə alınmışdır. Əgər 5 yaşlı uşaqlarda simvollaşma güclü inkişaf edirsə o zaman uşaq ətrafdakılara etibar etmədən öz problemlərinin həllinə məsuliyyəti öz üzərinə götürməyə meyllidir. Əgər simvollaşma müdafiə mexanizmi zəif inkişaf edirsə, o zaman uşaq problemin həllini məsuliyyətlə öz üzərinə götürməyə qadir deyildir.

6 yaşda simvollaşmanın inkişaf səviyyəsinin aşağı düşməsi bir sıra problemlərlə: emosional reaktivliklə, soyuqluqla, affektiv problemlərlə, somatik şikayətlərlə və həyəcanlılıqla müşayiət olunmuşdur. Qızlara gəldikdə, onu deyə bilərik ki, onlarda simvollaşmanın inkişafı bir çox problemlərlə: nigarançılıqla, soyuqluqla və affektiv problemlərlə müşayiət olunmuşdur. Oğlanlarda isə o, təcridetmə ilə, somatik şikayətlərlə müşahidə olunmuşdur.

Simvollaşma müdafiə mexanizminin zəif inkişafında oğlanlar ətrafdakılarla problem situasiyanın həllində məsuliyyət daşımağa meyllidirlər və əksinə, simvollaşmanın yüksək inkişafında oğlanlar ətrafdakılardan kömək istəməkdən imtina edirlər.

Bütünlükdə zənn etmək olar ki, simvollaşma müdafiə mexanizmi sosial adaptasiya prosesinə müsbət təsir göstərir. Yalnız böyük yaşda müsbət təsir özünü göstərir ki, bu da onda yetişkənliyin bir qədər gec olması ilə izah olunur. Tədqiqatın gedişində biz belə bir nəticəyə gəldik ki, müntəzəm istifadə edilən müxtəlif müdafiə mexanizmləri eyni deyildir. Psixoloji müdafiə mexanizmlərinin istifadəsində mövcud olan yaş fərqləri bir daha onu təsdiq edir ki, inkişaf parametrləri istənilən psixi təhsilin formalaşmasında əks etdirilir. Həmçinin oğlan və qızlar müxtəlif müdafiə mexanizmlərindən müxtəlif tezlikdə istifadə edirlər.

**Məqalənin aktuallığı.** Hal-hazırda psixoloji müdafiə anlayışı artıq uzun müddətdir ki, psixoanaliz çərçivəsindən kənar çıxmışdır və psixologiya psixoterapiyanın istənilən istiqamətlərində əhəmiyyətli məna kəsb etmişdir

**Məqalənin elmi yeniliyi.** Tədqiqatın elmi əhəmiyyəti ondadır ki, müasir dövrdə uşaq psixologiyasında psixoloji müdafiə prosesi araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktiki əhəmiyyəti pedaqoji tədqiqatlarda əhəmiyyətli yer alması ilə səciyyələnir. Bu, elektronlaşdırılmaqda olan təhsilin inkaredilməz şərtidir.

## Ədəbiyyat

1. Фрейд А. Психология Я и защитные механизмы. М.: Педагогическая пресса, 2013.

2. Басин Ф.В., Бурлакова М.К., Волков В.Н. Проблема психологической защиты // Журнал психологии, 2008, № 3.

3. Журбин В.И. Понятие психологической защиты в концепциях З. Фрейда и К.

Роджерса // Вопросы психологии, 2000, № 4.

4. Романова Е.С., Гребенникова Л.Р. Психологические защитные механизмы. М., 2012.
5. Психология личности. Том 1. (Под редакцией В. Райгородского). - К. Ростов-на-Дону, “БАХРАКС-М”, 2001.
6. Психологическая диагностика индекса образа жизни (учебник для врачей и психологов). (Под редакцией Л.И.Вассермана) - СПб., ПНИ, М., 2001.

**В.Н. Агаярли**

## Сущность и классификация механизмов психологической защиты

## Резюме

Психологическая защита является актуальной проблемой детской психологии современности. Можно задать вопрос, почему психологическая защита часто обсуждается, но не изучается. Основное внимание уделяется формированию механизмов психологической защиты в отношениях между родителями и детьми. Однако специфические психические проявления ребенка здесь до конца не изучены. Кроме того, существует большая потребность в изучении препятствий, с которыми часто сталкиваются дети на стадиях кризисного развития, с другой стороны, практических трудностей в изучении психологических защит, закономерностей психических явлений.

**V.N. Agayarli**

## The essence and classification of psychological defense mechanisms

## Summary

Psychological protection is a topical issue in child psychology in modern times. The question may be asked why psychological protection is often discussed but not studied. The main focus is on the formation of psychological defense mechanisms in the relationship between parents and children. However, the specific mental manifestations of the child have not been fully studied here. In addition, there is a great need to study the obstacles that children often encounter in the stages of crisis development, on the other hand, the practical difficulties in the study of psychological protection, the regularities of mental phenomena.

**Redaksiyaya daxil olub:** 03.03.2022